

*Biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, biz buraya qayıtmışıq, doğma diyarımıza qayıtmışıq. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan Prezidentinin Qarabağda quruculuq missiyası

***Son 18 ildə xalqımızın şərəfli dövlətçilik tarixinin zirvə hadisəsi Azərbaycanın ərazi bütövlüyünün – haqq-ədalətin bərpasına nail olunmasıdır. Bu, möhtəşəm siyasi və hərbi uğur dövlətçilik tariximizdə bənzəri olmayan şanlı zəfərdir. Bu, misli görünməyən qələbə Azərbaycanın hərbi gücünün, iqtisadi potensialının, beynəlxalq aləmdə siyasi nüfuzunun, söz sahibliyinin məntiqi nəticəsidir.***

Prezident İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru erməni faşizmindən təmizləyərək, bu bölgəni maraqlar uğrunda çəkişmələrdən, ziddiyyətlərdən, toqquşmalardan birdəfəlik xilas etdi, eyni zamanda, bu möhtəşəm qələbə ilə dövlətimizin başçısı Ali Baş Komandan olaraq dahi öndər Heydər Əliyevin ata vəsiyyətini gerçəkləşdirdi. Bununla yanaşı, bütün dünyaya Azərbaycanın haqlı tərəf olduğunu, Vətən savaşına Ermənistanın saysız-hesabsız təxribatına, düşmənin yeni torpaqlarımızı işğal etmək iddiasına son vermək məqsədilə əks-həmlə əməliyyatları ilə başladığını bildirdi. Ölkə rəhbəri Azərbaycanın müharibədə zəfər əldə etməklə ərazi bütövlüyü uğrunda döyüş aparmağa, qələbə qazanmağa qadir güclü ordusunun mövcudluğunu düşmənə və havadarlarına xatırlatdı. Silahlı Qüvvələrimizin döyüşlərdə reallaşdırdığı unikal əməliyyatlar da bunun bariz ifadəsi idi.

Dövlətimizin başçısının Vətən müharibəsində qətiyyətli, müdrik siyasəti, mahir sərkərdə fəaliyyəti ilə Ermənistanın acı məğlubiyyətindən sonra xalqımızın qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı daha da gücləndi. Artıq bir ildən çoxdur ki, ölkəmiz bu inam və etimadla İkinci Qarabağ savaşında olduğu kimi, Qarabağın bərpasında da gücünü bütün dünyaya nümayiş etdirir. Azərbaycan işğaldan azad edilən ərazilərdə nəhəng quruculuq işləri həyata keçirməklə bir daha bu torpaqların əsl sahibi olduğunu dünyaya göstərir.

Prezident İlham Əliyev Vətən müharibəsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında erməni faşizminin yerlə bir etdiyi yaşayış sahələrində bərpa və yenidənqurma işlərinə start verdi, "Böyük qayıdış"ın gerçəkləşməsini qarşıya mühüm vəzifə kimi qoydu. Bunun üçün dövlətimizin başçısı düşməndən təmizlənən ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həllini əlaqəli şəkildə reallaşdırmaq məqsədilə Əlaqələndirmə Qərargahının yaradılması haqqında 2020-ci il 24 noyabr tarixli sərəncam imzaladı. Eyni zamanda, ölkə rəhbəri erməni faşizmi tərəfindən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəyən ziyanın qiymətləndirilməsi və aradan qaldırılması üçün müvafiq sərəncamla dövlət qurumlarının səlahiyyətli nümayəndələrindən ibarət Dövlət Komissiyası formalaşdırdı. Prezident İlham Əliyev bütün bunlarla bərabər, "İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında" fərman və "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzaladı. Həmçinin qəsbkarlardan təmizlənən ərazilərin 2021-2025-ci illər üzrə bərpası, o cümlədən dayanıqlı inkişaf ilə bağlı Dövlət Proqramının hazırlanması tapşırığını verdi.

Prezident İlham Əliyev müharibədən sonra ərazilərin minalardan təmizlənməsini prioritet vəzifə kimi qarşıya qoydu. Bunun üçün ilk olaraq Minatəmizləmə Agentliyi (ANAMA), Müdafiə Nazirliyinin bir neçə xüsusi batalyonu və Fövqəladə Hallar Nazirliyinin Xüsusi riskli Minalardan Təmizləmə Alayı tərəfindən torpaqların minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işlərinə başlanıldı.

Hazırda işğaldan azad edilən ərazilərimizdə mühəndis işləri sürətlə davam etdirilir. Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir.

Azad edilmiş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində mart ayında 203 hektar ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib. Düşməndən təmizlənən torpaqlarda bugünədək mühəndis-istehkam bölmələri tərəfindən 14600 hektaradək ərazi minalardan təmizlənib. Ümumilikdə, 6 min ədəddən çox piyada əleyhinə, 2100 ədəddən artıq tank əleyhinə və 9300 ədəddən çox partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib. Mina təmizlənmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə qısa müddətdə Füzuli Beynəlxalq Hava Limanı inşa olunub, Zəngilan və Laçın rayonlarında da aeroportların tikintisinə başlanılıb.

Bu dövrdə yol infrastrukturunun qurulmasına da mühüm önəm verilib, bu istiqamətdə qısa zaman ərzində genişhəcmli layihələr gerçəkləşdirilib. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 16 yol layihəsi yerinə yetirilir və rayondaxili yolların tikintisi apalır, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan ərazilərində 780 kilometr uzunluğunda daxili yolların inşası sürətlə davam etdirilir.

Göygöl-Toğanalı-Kəlbəcər yolunda olacaq 11,6 kilometrlik tunelin tikintisi çərçivəsində 25 faiz işlər artıq yerinə yetirilib. Bu tunelin inşasının başa çatdırılması 2024-cü ilin sonunadək nəzərdə tutulub. Bundan əlavə, 6-4 hərəkət zolaqlı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi çərçivəsində işlərin 70 faizi yerinə yetirilib. Yolun tikintisinin 2023-cü ilin sonunadək bitəcəyi planlaşdırılıb. Yol tikintisi ilə bərabər, dəmiryolu xətlərinin salınması da uğurla reallaşdırılır. Bərdə-Ağdam (47,1 kilometr) və Horadiz-Ağbənd dəmir yolu xətlərinin (110,4 kilometr) tikintisi sürətlə reallaşdırılır.

Prezident İlham Əliyev ötən il mayın 3-də "Azərbaycan Respublikası ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamaqla ölkəmizdə "yaşıl enerji" zonasının qurulmasına mühüm önəm verildiyini diqqətə çatdırıb. "Yaşıl enerji" zonası layihəsinin Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılmasını potensial imkanlarla bərabər, digər amillər də şərtləndirir. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin stimullaşdırılmasına və ekoloji tarazlığın təmin edilməsinə yönəldildiyindən, adları çəkilən iqtisadi rayonların bərpa-yenidənqurma məsələlərində də bu istiqamət əsas götürülür.

Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qlobal iqlim dəyişikliklərinin miqyasının azaldılması, təmiz ətraf mühitin təmin olunması və Azərbaycanın "yaşıl enerji" ölkəsinə çevrilməsi kimi məsələlər yaxın onilliyin əsas strateji istiqaməti kimi göstərilib.

Qarabağ və Şərqi Zəngəzurda artıq bir neçə su-elektrik stansiyası inşa edilərək, işə salınıb. Günəş, eləcə də külək stansiyalarının yaradılması ilə bağlı konkret planların da ardıcıllıqla həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Məsələn, bp şirkəti ilə imzalanmış icra müqaviləsinə əsasən, Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi qərara alınıb.

Xatırladaq ki, sözügedən "yaşıl enerji" zonası 10 min kvadratkilometr ərazini əhatə edir. Bura daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Aparılan təhlilə əsasən, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş-elektrik enerjisinin istehsalı mümkündür. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çaylarının və digər kiçik çayların da böyük hidroenerji potensialı var. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Bu ehtiyatlar "yaşıl enerji" zonasının yaradılması istiqamətində müxtəlif layihələrin həyata keçirilməsini şərtləndirir. Təkcə cari il beş kiçik su-elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Hazırda Cəbrayıl rayonunda günəş-elektrik stansiyasının inşa edilməsi istiqamətində inamlı addımlar atılır. Yeri gəlmişkən, keçən il fevralın 22-də Energetika Nazirliyi və bp şirkəti tərəfindən iri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən, Azərbaycanın regionlarında və şəhərlərində bərpaolunan enerji layihələri üçün tələb olunan potensialın, habelə şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq məqsədilə anlaşma memorandumu imzalanıb. Bu sənəd Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi, rəqabətli enerji bazarının yaradılması, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi, bp-nin isə 2020-ci ildə "xalis sıfır emissiya" hədəflərini elan etməsi kontekstində imzalanıb.

Növbəti addım isə 2021-ci il iyunun 3-də Energetika Nazirliyi və bp şirkəti arasında Zəngilan-Cəbrayıl zonasında 240 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair icra müqaviləsinin imzalanması olub. Bu müqavilə çərçivəsində əməkdaşlıq günəş enerji layihəsinin texniki və kommersiya aspektində qiymətləndirilməsini, stansiyanın layihələndirilməsini, maliyyələşdirilməsinin reallaşdırılması və yekun investisiya qərarının qəbulu kimi istiqamətləri əhatə edib. Eləcə də müvafiq fəaliyyətin həyata keçirilməsi məqsədilə "rəhbər komitə"nin yaradılması nəzərdə tutulub.

Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Cəbrayılda tikiləcək günəş-elektrik stansiyasında 500 milyon kVt-saatdan çox elektrik enerjisi istehsal olunacaq və 150 min ev təsərrüfatının illik elektrik enerjisi təmin ediləcək. Həyata keçiriləcək bu layihə ümumi olaraq işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" zonası yaradılmasının komponentlərindən biri kimi qiymətləndirilir. Hazırda layihə imzalanan icra müqaviləsi sayəsində gerçəkləşdirilir.

İşğaldan azad olunan ərazilərimizdə turizm infrastrukturunun yaradılması, oradakı mədəni tarixi abidələrin tanıdılması ilə bağlı layihələrin icrası da diqqətdə saxlanılır. Həmçinin turizm potensialının öyrənilməsi, qiymətləndirilməsi və turizm inkişaf konsepsiyalarının hazırlanmasına da xüsusi önəm verilir.

İndiyədək düşməndən təmizlənən ərazilərdə turizmin inkişafı ilə bağlı Regional Turizm Strategiyası və Fəaliyyət Planının layihəsi hazırlanıb. Sözügedən strategiya layihəsinin istiqamətləri müvafiq olaraq "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı üzrə Dövlət Proqramı" layihəsinə inteqrasiya edilib.

Qarabağ regionunda turizm və rekreasiya zonalarının yaradılması istiqamətində Xocavəndin Hadrut qəsəbəsi, Tuğ, Ağbulaq, Şəkər yaşayış məntəqələri, Kəlbəcərin İstisu qəsəbəsi, Şuşanın Daşaltı, Zülfüqarlı, Lex və Qamışlı, Qubadlının Bərgüşad və Zəngilanın Qaragöl kəndlərinin müəyyən əraziləri turizm və rekreasiya zonaları üçün müəyyənləşdirilib. Bu ərazilərə dair ilkin təqdimat sənədi hazırlanıb və aidiyyəti dövlət qurumlarına ərazilərin inkişaf planlarında nəzərə alınması üçün təqdim olunub. Tərtər rayonunun Suqovuşan qəsəbəsinin region üzrə rekreasiya imkanlarının artırılması və aktiv turizm fəaliyyətlərinin yaradılması istiqamətində turizmin inkişafı ilə bağlı konseptual inkişaf planı hazırlanıb.

Bununla yanaşı, Şuşa şəhərinin, turizm potensialına malik Daşaltı və Tuğ kəndlərinin, Hadrut qəsəbəsinin turizm inkişaf konsepsiyaları hazırlanıb. Həmçinin, "Qarabağ Zəfər Marşrutları" konsepsiyası çərçivəsində "Yolumuz Ağdama" və "Füzuli və Xocavənd" bir günlük turlarının ilkin layihəsi işlənilib. Artıq bu layihə əsasında sayt vasitəsilə Şuşaya və Ağdama turların təşkilinə başlanılıb.

Prezident İlham Əliyevin "Böyük qayıdış" strategiyasında başlıca prioritetlərindən biri də Qarabağ və Şərqi Zəngəzurda sosial şəraitin ən yüksək səviyyədə yaradılmasıdır. Məqsəd keçmiş məcburi köçkünlərin bu ərazilərdə yaşayışının mütərəqqi beynəlxalq təcrübəyə və innovativ yanaşmaya əsaslanan çevik mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq prinsiplərinin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsidir. Bu baxımdan düşməndən təmizlənən ərazilərdə "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"nin (DOST Agentliyi) yerli qurumlarının təşkili də mühüm önəm daşıyır. Bu konsepsiyanın gerçəkləşdirilməsi məqsədilə azad edilmiş ərazilərdə "DOST" mərkəzlərinin təşkili planının hazırlanması bunun parlaq ifadəsidir.

Xatırladaq ki, cari ilin sonuna qədər Şuşa şəhərində Qarabağ regionunda ilk "DOST" mərkəzinin fəaliyyətə başlayacağı nəzərdə tutulur. Hazırda bununla əlaqədar layihə işləri gedir. Eyni zamanda, Cəbrayılda regional "DOST" mərkəzinin, Zəngilanın Ağalı kəndində "Ağıllı DOST", "SMART DOST" prinsipi ilə layihənin reallaşdırılacağı nəzərdə tutulur. Kəlbəcər, Laçın, Ağdam, Hadrut, Zəngilan, Füzuli və Qubadlıda da "DOST" filiallarının yaradılması, "ağıllı" kəndlərimizdə "SMART DOST" məntəqələrinin quraşdırılmasını planlaşdırılır.

Yuxarıda vurğulananlara əsaslanıb qeyd edə bilərik ki, Azərbaycan hazırda özünün ən şərəfli, məsuliyyətli və tarixi dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq layihələri xalqımızı tərəqqiyə, daha parlaq gələcəyə aparır. Bununla da dövlərimizin başçısının Prezident seçilərkən vəd etdiyi "hər bir azərbaycanlının Prezidenti olacağı" sözlərinin dövlət başçısının titanik fəaliyyəti ilə artıq təsdiqləndiyi sübut edilir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***